GENERAL TERMS AND CONDITIONS

CFI FINANCIAL INVESTMENT COMPANY
REGULATED BY THE CENTRAL BANK
OF THE REPUBLIC OF AZERBAIJAN

1. INTRODUCTION

1.1 "CFI Financial Investment Company" OJSC (hereinafter referred to as the "Company", "CFI Azerbaijan", "CFI", or "We") is a legal entity registered in accordance with the legislation of the Republic of Azerbaijan and operates under the supervision of the Central Bank of the Republic of Azerbaijan pursuant to License No. İSN/L-7/2016 issued by the Central Bank of the Republic of Azerbaijan.

1.2 This document sets forth the general terms and conditions (hereinafter referred to as the "General Terms and Conditions", the "Terms" or the "Agreement") governing the relationship between you (hereinafter referred to as the "Client") and us, and shall be deemed a binding Agreement between the parties. Please read these Terms carefully, as they constitute the Agreement between you and the Company. By opening an account with us, you confirm that you have read, understood, and accepted all the terms and conditions set forth in this document. This Agreement shall become effective as of the date your account is opened with the Company.

1.3 Annex No. 1 – 'General Terms and Conditions for Securities and Margin Trading' which forms an integral part of these Terms, shall also apply to the relationships related to other services provided by the Company, as applicable. By agreeing to these Terms, the Client acknowledges that Annex No. 1 is also an integral part of these Terms.

2. SUBJECT OF THE AGREEMENT

2.1 Under this Agreement, the Company shall open an investment account for the Client in its internal accounting system for the purpose of accepting and executing the Client's orders and providing investment services (transactions), as well as for maintaining the Client's asset records. Transactions related to securities issued by issuers of the Republic of Azerbaijan or derivative financial instruments shall only be executed for Clients who have a deposit account in the Central Depository (hereinafter referred to as the National Depository Center or NDC). If the Client does not have a deposit account in the Central Depository, the Company will open a deposit account for the Client in the NDC, and the Client's rights to the securities will be reflected in the deposit account. By signing this Agreement, the Client grants their consent for the transmission of documents provided to the Company in accordance with the applicable legislation to the NDC during the Client's compliance measures by the Central Depository.

2.2 The Company shall provide the Client with account operator services in the depositary system in accordance with the "Rules for the Opening, Closing, and Management of Accounts in the Depository System" of the NDC. If the Client already has a deposit account in the depositary system, the Client may issue instructions to the Company regarding the existing account, or a new deposit account may be opened upon the Client's request, and the previous deposit account may be merged with the new account.

2.3 Under this Agreement, the Company accepts and executes the Client's orders related to transactions involving securities or derivative financial instruments. In return, the Client shall pay the Company the service fee specified in Clause 10 of this Agreement.

2.4. By signing this Agreement, the Client confirms that they have been informed of and acknowledge the risk factors outlined in this Agreement.

3. RIGHTS AND OBLIGATIONS OF THE PARTIES

3.1 The Rights of the Company:

3.1.1 To charge the Client a service fee for providing the Services under this Agreement;

3.1.2 To refrain from executing the order if the funds required to execute the Client's order are not provided as necessary;

3.1.3 If the Client's funds are insufficient for the conclusion of the transaction, to refrain from executing the Client's order until the missing funds are credited to the Company's account.

ÜMUMİ ŞƏRT VƏ MÜDDƏALAR

CFİ FİNANCİAL İNVESTİSİYA ŞİRKƏTİ
AZƏRBAYCAN RESPUBLİKASININ MƏRKƏZİ
BANKI TƏRƏFİNDƏN TƏNZİMLƏNİR

1. GİRİŞ

1.1 "CFI Financial İnvestisiya Şirkəti" QSC (bundan sonra "Şirkət", "CFİ Azərbaycan" "CFI" "Biz" adlandırılacaq) Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən qeydə alınmış, Azərbaycan Respublikası Mərkəzi Bankının İSN/L-7/2016 saylı Lisenziyası əsasında Azərbaycan Respublikasının Mərkəzi Bankının nəzarəti altında fəaliyyət göstərir.

1.2 Bu sənəd sizinlə (bundan sonra-"Müştəri" adlandırılacaq) bizim aramızda olan münasibəti tənzimləyən ümumi şərt və müddəaları (bundan sonra- "Ümumi Şərt və Müddəalar", "Şərtlər" və ya "Müqavilə") müəyyən edir və aramızda bağlanan Müqavilə hesab edilir. Xahiş edirik, sizinlə Şirkət arasında müqaviləni ("Müqavilə") təşkil edən bu şərtləri diqqətlə nəzərdən keçirin. Bizdə hesab açmaqla siz bu sənəddə təqdim olunan bütün şərt və müddəaları oxuduğunuzu, başa düşdüyünüzü və qəbul etdiyinizi təsdiq edirsiniz və bu Müqavilə bizdə hesabınızın açıldığı tarixdən etibarən qüvvəyə minir.

1.3 Bu Şərtlərin tərkib hissəsi olan 1 nömrəli Əlavə - "Qiymətli Kağızlar və Marja Ticarəti üzrə Ümumi Şərt və Müddəalar" aidiyyəti üzrə Şirkətin göstərdiyi digər xidmətlərlə bağlı münasibətlərə də tətbiq edilir. Müştəri bu Şərtlərə qoşulmaqla, 1 nömrəli Əlavənin də bu Şərtlərin tərkib hissəsi olduğunu qəbul edir.

2. MÜQAVİLƏNİN PREDMETİ

2.1 Bu Müqaviləyə əsasən Şirkət Müştərinin sifarişlərinin qəbulu və icra edilməsi üzrə investisiya xidmətinin (əməliyyatının) göstərilməsi və müştərinin aktivlərinin uçotunun aparılması məqsədilə öz daxili uçot sistemində müştəri üçün investisiya hesabı açır. Azərbaycan Respublikasının emitentləri tərəfindən emissiya edilən qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə aparılan əməliyyatlarla bağlı müştəri sifarişlərinin qəbulu və icra edilməsi yalnız mərkəzi depozitarda (bundan sonra-Milli Depozit Mərkəzi və ya MDM) depo hesabı olan müştəriyə münasibətdə həyata keçirilir. Müştərinin mərkəzi depozitarda depo hesabı olmadığı təqdirdə, Şirkət müştəri üçün MDM-də depo hesab açır və müştərinin qiymətli kağızlarına olan hüquqlara dair qeydləri depo hesabda əks etdirilir. Müştəri bu Müqaviləni imzalamaqla depo hesabının açılması zamanı mərkəzi depozitarın müştəri uyğunluğu tədbirləri çərçivəsində qanunvericiliklə Müştəri tərəfindən Şirkətə təqdim edilmiş sənədlərin MDM-ə ötürülməsinə dair öz razılığını verir.

2.2 Şirkət MDM-in "Depozitar sistemində hesabların açılması, bağlanılması və idarə edilməsinə dair Qaydaları"na müvafiq olaraq depozitar sistemində Müştəriyə hesab operatoru xidmətini yerinə yetirir. Müştərinin depozitar sistemdə depo hesabı artıq mövcuddursa, Müştəri mövcud hesab üzrə Şirkətə sərəncam verə bilər və ya Şirkət tərəfindən Müştərinin istəyi ilə yeni depo hesabı açılaraq əvvəlki depo hesabı bu hesaba birləşdirilə bilər.

2.3 Bu Müqaviləyə əsasən, Şirkət qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə aparılan əməliyyatlarla bağlı Müştərinin sifarişlərini qəbul və icra edir. Bunun müqabilində Müştəri Şirkətə bu Müqavilənin 10-cu bəndində nəzərdə tutulmuş xidmət haqqı ödəyir.

2.4 Bu müqaviləni imzalamaqla müştəri bu Müqavilədə əks olunmuş risk faktorları ilə tanış olduğunu təsdiq edir.

3. TƏRƏFLƏRİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

3.1 Şirkətin hüquqları:

3.1.1 Bu Müqavilə üzrə Xidmətlərin göstərilməsinə görə Müştəridən xidmət haqqı almaq;

3.1.2 Müştəri tərəfindən Sifarişi icra etmək üçün tələb olunan vəsait aidiyyəti üzrə təqdim edilmədikdə sifarişi icra etməmək;

3.1.3 Əqdin bağlanması üçün Müştərinin vəsaiti çatmadıqda, çatışmayan vəsaitin Şirkətin hesabına daxil olması anına qədər Müştərinin Sifarişini icra etməmək;

CFI Financial Investment Company
Office located on 22nd floor of the building known as "Crescent Business center" at the address of Baku City, Nasimi District, 64 Neftchilar avenue +994125999099 | info.az@cfi.trade | www.cfi.trade

3.1.4 To refrain from executing the Client's order if it is not properly drafted in accordance with the legislation, or if the necessary funds or securities to fulfill the order are not available.

3.1.5 To demand reimbursement for expenses incurred during the execution of this Agreement;

3.1.6 To request documents that allow for the identification of the Client;

3.1.7 To act as the Client's authorized representative before third parties, settlement agents, depositories, trade organizers, and registrars for the purposes of this Agreement;

3.1.8 If facts indicating that the source of the transactions presented by the Client is unlawful are discovered, to suspend the execution of the Client's order and refuse to provide the Company's Services until the legality of the transaction is confirmed;

3.1.9 To execute transactions related to the Client's securities or derivative financial instruments that are encumbered with obligations;

3.1.10 If the Client fails to fulfill their obligations, to terminate this Agreement unilaterally by notifying the Client in writing at least 10 (ten) business days in advance;

3.1.11 To request that the Client's orders given to the Company via telephone or other electronic means be provided in writing and signed.

3.1.12 To exercise any other rights granted under applicable legislation.

3.2. The Obligations of the Company:

3.2.1 An account shall be opened for the Client in the Company's internal accounting system, and the Identification Number related to this account shall be provided to the Client no later than within 5 (five) business days.

3.2.2 To open a deposit account in the NDC based on the Client's instruction;

3.2.3 To execute Orders and/or Requests duly submitted in the required manner;

3.2.4 To inform the Client of the reasons that make the execution of the Order and/or Request impossible, in case such execution cannot be carried out;

3.2.5 To ensure the diligent and high-quality execution of the Services. High-quality execution shall mean that the Company takes all reasonable measures to determine the best available price in the market for a transaction of the relevant type and volume and, in such a case, does not enter into a transaction at a price less favorable than the best available one. In the course of executing the Services, the Company shall act exclusively in the Client's best interests and, based on its reasonable judgment, inform the Client of any circumstances that may adversely affect the Client's interests.

3.2.6 To provide the Client with a report, signed and sealed by the Company, regarding the execution of the Order and/or Request in the agreed manner.

3.2.7 To execute the Client's Orders to the extent of the value of the Assets transferred by the Client for the purpose of executing such Orders;

3.2.8 To fulfill other obligations as stipulated by the applicable legislation and the Company's internal regulations.

3.3. The Rights of the Client:

3.3.1 To cancel any unexecuted Order, in whole or in part, by providing a notice to the Company in the form prescribed by the legislation (electronic, written, by telephone, or in writing);

3.3.2 To receive reports from the Company regarding the Services and Transactions related to the Client in electronic and other written forms;

3.3.3 If the Company fails to fulfill its obligations, to terminate this Agreement unilaterally by notifying the Company in writing at least 10 (ten) business days in advance.

3.4. The Client's Obligations:

3.4.1 To sign the Order and provide the documents and information required to execute the Order;

3.4.2 To inform the Company in writing within 5 (five) business days of any changes to the documents provided to the Company in relation to this Agreement;

3.1.4 Müştərinin sifarişi qanunvericiliyə uyğun qaydada tərtib edilmədikdə və sifarişi təmin etmək üçün lazimi vəsait və ya qiymətli kağızlar olmadıqda sifarişi icra etməmək;

3.1.5 Bu Müqavilənin icrası zamanı çəkilmiş xərclərin əvəzinin ödənilməsini tələb etmək;
3.1.6 Müştərini eyniləşdirməyə imkan verən sənədləri tələb etmək;

3.1.7 Bu Müqavilənin məqsədləri üçün üçüncü şəxslər, hesablaşma agentləri, depozitar, ticarət təşkilatçıları və reyestrsaxlayıcılar qarşısında Müştərinin vəkil edilmiş şəxsi kimi çıxış etmək;

3.1.8 Müştəri tərəfindən təqdim olunmuş sənədlərdə əqdlərin mənbəyinin qeyri-qanuni xarakter daşıdığına dəlalət edən faktlar aşkar edildikdə, əqdin qanuni olmasını təsdiq edənə qədər, Müştərinin Sifarişinin icrasını dayandırmaq və Şirkət Xidmətlərinin göstərilməsindən imtina etmək;

3.1.9 Müştərinin qiymətli kağızlarının və ya törəmə maliyyə alətlərinin öhdəliklərlə yüklənməsi ilə bağlı əməliyyatlarını həyata keçirmək;

3.1.10 Müştəri öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmədikdə, müştərini 10 (on) iş günü öncədən yazılı surətdə məlumatlandıraraq bu Müqaviləyə birtərəfli qaydada xitam vermək;

3.1.11 Şirkətə telefon və ya digər elektron daşıyıcı formalarda müştərinin verdiyi sifarişləri yazılı və imzalanmış şəkildə tələb etmək.

3.1.12 Qanunvericilik ilə müəyyən olunmuş digər hüquqlara malik olmaq.

3.2 Şirkətin vəzifələri:

3.2.1. Müştəriyə Şirkətin daxili uçot sistemində hesab açmaq və ən geci 5 (beş) iş günü ərzində bu hesabla bağlı Eyniləşdirmə Nömrəsini Müştəriyə təqdim etmək;

3.2.2. Müştərinin göstərişinə əsasən MDM-də depo hesabı açmaq;

3.2.3 Tələb olunan qaydada təqdim edilmiş Sifarişləri və/və ya Müraciətləri icra etmək;

3.2.4 Sifarişin və/və ya Müraciətin icra edilməsi mümkün olmadıqda icranı mümkünsüz edən səbəblər barədə Müştərini məlumatlandırmaq;

3.2.5 Xidmətlərin vicdanla və keyfiyyətli icrasını təmin etmək. Keyfiyyətli icra dedikdə Şirkətin, müvafiq növdə və həcmdə olan əqd üçün bazarda olan ən yaxşı qiymətin müəyyən edilməsi üçün bütün ağlabatan tədbirləri görməsi və belə hal olduğu təqdirdə Müştəriyə daha az əlverişli qiymətdən aşağı qiymətə olmayan əqdə daxil olmaması nəzərdə tutulur. Xidmətlərin icrası zamanı müstəsna olaraq Müştərinin maraqlarına xidmət etmək və özünün ağlabatan mühakiməsində Müştərinin maraqlarına mənfi təsir göstərə biləcək hallar haqqında Müştərini məlumatlandırmaq;

3.2.6 Sifarişin və/və ya Müraciətin yerinə yetirilməsi barədə Müştəriyə razılaşdırılmış qaydada və Şirkət tərəfindən imzalanmış və möhür ilə təsdiq edilmiş hesabat təqdim etmək;

3.2.7 Müştəri tərəfindən onun Sifarişlərinin icra edilməsi məqsədilə köçürülmüş aktivlərin dəyəri həddində Müştərinin Sifarişlərini yerinə yetirmək;

3.2.8 Qanunvericilik və Şirkətin daxili qaydaları ilə müəyyən olunmuş digər vəzifələri daşımaq.

3.3 Müştərinin hüquqları:

3.3.1 Şirkətə qanunvericilikdə nəzərdə tutulan formada (elektron, yazılan telefon vasitəsi ilə və ya yazılı) bildiriş təqdim edərək hər hansı icra edilməmiş Sifarişi tam və ya qismən ləğv etmək;

3.3.2 Şirkətdən Müştəriyə aid olan Xidmətlər və Əqdlər barədə elektron və digər yazılı formalarda hesabat almaq;

3.3.3 Şirkət öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmədikdə, Şirkəti 10 (on) iş günü öncədən yazılı surətdə məlumatlandıraraq bu Müqaviləyə birtərəfli qaydada xitam vermək.

3.4 Müştərinin öhdəlikləri:

CFI Financial Investment Company
Office located on 22nd floor of the building known as "Crescent Business center" at the address of Baku City, Nasimi District, 64 Neftchilar avenue +994125999099 | info.az@cfi.trade | www.cfi.trade

3.4.3 To provide the Company with funds in a timely manner for the execution of Orders;

3.4.4 To pay the service fee to the Company within the time specified in Clause 10 of this Agreement upon the execution of Orders and Requests;

3.4.5 To refrain from placing any orders with the Company until the full execution of the Client's obligations under previous Orders;

3.4.6 To inform the Company of any pledge or other collateral related to the securities owned by the Client and relevant to the nature of the Order, which the Client knows or should know about;

3.4.7 To compensate the Company for any damages incurred as a result of the Client's failure to fulfill their obligations;

3.4.8 upon the Company's request, provide in written and signed form any orders previously given to the Company via telephone or other electronic means;

4. SETTLEMENT PROCEDURE

Settlement under this Agreement shall be carried out by transfer in accordance with the rules of the clearing organization and settlement agent with respect to exchange transactions, and by cash or transfer with respect to over-the-counter transactions. An additional settlement procedure may be defined by mutual agreement of the parties in the form of an Addendum to this Agreement.

5. PROCEDURE FOR THE RETURN OF THE CLIENT'S ASSETS, INCLUDING CONDITIONS FOR CONDUCTING MUTUAL SETTLEMENTS

5.1 The Client may request the return of their assets held with the Company.

5.2 Upon receiving the request referred to in Clause 5.1 of this Agreement, the Company shall verify whether the assets in question belong to the Client and shall return the assets specified in the request within 3 (three) business days.

5.3 Upon termination of this Agreement or an Order, the Client's remaining Assets held in the Company's account shall be returned to the Client by the Company after deducting the service fees and justified expenses of the Company and third parties in accordance with this Agreement.

5.4 If the Client has no remaining balance with the Company, any request for the return of assets related to executed orders shall not be considered.

6. PROCEDURE FOR PLACING ORDERS, CANCELATION OF ORDERS OR FULL/PARTIAL CANCELATION OF UNEXECUTED PARTS, AND PROVIDING INFORMATION TO THE CLIENT

6.1 Except for orders submitted in electronic form or via telephone, the order shall be prepared in two copies, signed, and one copy shall be provided to the client with a written record and signature of the employee of the investment company who holds a professional certificate, confirming the acceptance of the order. If the client is represented by an authorized representative, the order shall include the number of the power of attorney granted to that person, the issuance and validity dates, and the authorized actions.

6.2 If the amount of a buy order is deemed risky based on the "Rules for Client Compliance and Verification Measures during the Application of New Technologies, Identification of Risk Factors, and Classification of Client Profiles into Risk Groups", the Company may request documents regarding the income and sources of income of the order's total amount.

6.3 Client orders may be fully executed by the Company, or partially executed due to reasons beyond the Company's control, taking into account the terms specified in this Agreement.

6.4 The Client's signature on the order constitutes confirmation of the accuracy of the information reflected in the order.

6.5 If the Company encounters any difficulties while executing client orders, it shall immediately inform the client about the issue.

6.6 If the Company is unable to execute the order, it shall inform the Client, within a maximum of 3 (three) business days, by providing the reasons for the non-execution of the Client's order.

3.4.1 Sifarişi imzalamaq və Sifarişi yerinə yetirmək üçün tələb olunan sənədləri və məlumatları təqdim etmək;

3.4.2 Bu müqavilə ilə əlaqədar şirkətə təqdim olunan sənədlərdə hər hansı bir dəyişiklik olduqda Şirkətə bu barədə 5 (beş) iş günü ərzində yazılı surətdə məlumat vermək;

3.4.3 Sifarişlərin icra edilməsi məqsədilə Şirkəti vəsaitlə vaxtında təmin etmək;

3.4.4 Sifariş və Müraciətlər yerinə yetirildikdə Şirkətə bu Müqavilənin 10-cu bəndində müəyyən edilmiş vaxtda xidmət haqqını ödəmək;

3.4.5 Şirkətə Müştəri tərəfindən əvvəlki Sifarişlərlə bağlı öhdəliklərinin tam icra olunmasına qədər sifarişlər verməmək;

3.4.6 Şirkəti Müştəriyə məxsus olan və Sifarişin mahiyyəti ilə bağlı olan Müştərinin bildiyi və ya bilməli olduğu Qiymətli Kağızlara münasibətdə mövcud olan hər hansı girov və ya digər təminatın olması barədə məlumatlandırmaq;

3.4.7 Müştərinin öhdəliklərini yerinə yetirməməsi səbəbindən Şirkətə dəymiş bütün zərəri ödəmək;

3.4.8 Şirkətə telefon və ya digər elektron daşıyıcı formalarda verdiyi sifarişləri Şirkətin tələbi ilə yazılı və imzalanmış şəkildə təqdim etmək.

4. HESABLAŞMA QAYDASI

Bu Müqavilə üzrə hesablaşma birja əqdlərinə münasibətdə klirinq təşkilatının və hesablaşma agentinin qaydalarına əsasən köçürmə yolu ilə, birjadankənar əqdlərə nağd və ya köçürmə yolu ilə həyata keçirilir. Əlavə Hesablaşma qaydası bu müqaviləyə Əlavə razılaşma şəklində tərəflərin razılığı ilə müəyyən edilə bilər.

5. MÜŞTƏRİNİN AKTİVLƏRİNİN QAYTARİLMASI QAYDASI, O CÜMLƏDƏN QARŞILIQLI HESABLAŞMALARIN APARILMASI ŞƏRTLƏRİ

5.1 Müştəri şirkətdə olan aktivlərinin geri qaytarmaq üçün Şirkətə müraciət edə bilər.

5.2 Şirkət bu müqavilənin 5.1-ci bəndində qeyd edilən müraciəti aldıqdan həmin aktivlərin müştəriyə məxsus olub-olmamasını yoxlayır və 3 (üç) iş günü ərzində müraciətdə qeyd olunan aktivləri geri qaytarmalıdır.

5.3 Bu Müqaviləyə və ya sifarişə xitam verildikdə Müştərinin Şirkətin hesabında qalmış Aktivlərini bu Müqavilə üzrə Şirkətin və üçüncü şəxslərin xidmət haqqı və əsaslandırılmış xərclər çıxdıqdan sonra Şirkət tərəfindən Müştəriyə qaytarılmalıdır.

5.4 Müştərinin Şirkətdə qalığı olmadığı təqdirdə icra olunmuş sifarişlər üzrə aktivlərin geri qaytarılması tələbi nəzərə alınmır.

6. SİFARİŞLƏRİN VERİLMƏSİ, SİFARİŞİN LƏĞV EDİLMƏSİ VƏ YA İCRA EDİLMƏMİŞ HİSSƏSİNİN TAM VƏ YA QİSMƏN LƏĞV EDİLMƏSİ VƏ BU BARƏDƏ MÜŞTƏRİYƏ MƏLUMATLARIN VERİLMƏSİ QAYDASI

6.1 Elektron formada və ya telefon vasitəsilə təqdim edilən sifariş istisna olmaqla, sifariş iki nüsxədə tərtib edilir, imzalanır və bir nüsxəsi investisiya şirkətinin ixtisas şəhadətnaməsinə malik olan əməkdaşının sifarişi qəbul etməsi barədə yazılı qeydi və imzası ilə müştəriyə təqdim edilir. Müştərini səlahiyyətli nümayəndəsi təmsil etdikdə, sifarişdə həmin şəxsə verilmiş etibarnamənin nömrəsi, verilmə, qüvvədə olma tarixləri və etibar edilmiş hərəkətlər göstərilir.

6.2 Alış sifarişin məbləği "Müştəri uyğunluğu və yeni texnologiyaların tətbiqi zamanı verifikasiya tədbirlərinə, risk faktorlarının müəyyən edilməsinə və müştəri profilinin risk qruplarına aid edilməsinə dair Qaydalar"ına əsasən riskli hesab edildikdə Şirkət Sifarişin ümumi məbləğinin gəliri və gəlir mənbələri barədə sənədləri tələb edə bilər;

6.3 Müştəri sifarişləri Şirkət tərəfindən bu Müqavilədə göstərilən şərtlər nəzərə alınmaqla tam və ya Şirkətdən asılı olmayan səbəblərdən qismən icra oluna bilər.
6.4 Müştəri tərəfindən sifarişin imzalanması sifarişdə əks olunan məlumatların təsdiq edilməsini ehtiva edir.

CFI Financial Investment Company
Office located on 22nd floor of the building known as "Crescent Business center" at the address of Baku City, Nasimi District, 64 Neftchilar avenue +994125999099 | info.az@cfi.trade | www.cfi.trade

6.7 The parties agree that the notification may be made via phone, email, SMS, and official letter (mail) as reflected in this Agreement and its annexes (client questionnaire).

6.8 The Company shall not be liable for the non-execution of an order due to reasons beyond its control (force majeure, actions of third parties, legal requirements, etc.).

6.9 The client's order shall be considered null and void, and its execution shall be suspended in the following cases:

6.9.1 When canceled by the client;

6.9.2 When the execution period specified in the order expires;

6.9.3 When the execution of the order is impossible due to mechanical errors in the order (price, quantity errors, symbol errors, etc.).

7. RISK FACTORS

7.1 Risks can be classified in various ways, especially through the following methods:

7.1.1 According to the sources of occurrence:

a) systemic risk-the risk associated with the operation of a system in general, including but not limited to the banking system, depository system, trading system, clearing system, or other structures constituting the securities market;

b) Non-systemic (individual) risk – the risk pertaining to a specific participant of the securities market, such as an investor, a company, an authorized manager, a trading platform, a depository, a bank, an issuer, regulators of the securities market, etc.

7.1.2 According to risk factors:

a) Economic risk – the risk of the emergence of adverse economic conditions. Among such risks, the following should be specifically noted:

b) Price risk – the risk of losses arising from unfavorable changes in prices;

c) Market risk – the risk of losses on balance sheet and off-balance sheet positions arising from changes in market prices;

d) Currency risk – the risk of losses resulting from unfavorable changes in exchange rates;

e) Interest rate risk – the risk of losses resulting from adverse changes in interest rates;

f) Inflation risk – the risk associated with a decrease in the purchasing power of money;

g) Liquidity risk – the potential difficulty of selling or purchasing assets at a given moment;

h) Operational risk – the risk of losses arising from internal processes, system failures, human factors, and external events.

i) Commodity price risk – the risk of losses arising from volatility in commodity prices.;

j) Settlement and counterparty risk – the risk of losses arising from delayed settlement and the inability of the counterparty to fulfill its obligations before settlement.

k) Concentration risk – the risks exceeding 25% of the total capital of the Company in relation to an individual Client or a group of Clients.

l) Credit risk – the risk of losses arising from the borrower's inability to fulfill its obligations.

m) Equity price risk – the risk of losses arising from volatility in stock prices.

n) Specific debt instrument price risk – the risk of price differences arising from factors related to the issuer of debt instruments.;

o) Specific position risk – the risk of price differences arising from factors related to the issuer of a financial instrument.

p) Legal risk – the risk related to changes in legislation (legislative risk) – the potential for losses arising from the introduction of new legislative acts,

6.5 Şirkət müştərilərin sifarişlərini icra edərkən hər hansı bir çətinliklə üzləşdikdə bu barədə müştəriyə dərhal məlumat verir.

6.6 Şirkət Sifarişi icra edə bilmədikdə, Müştəriyə ən geci 3 (üç) iş günü ərzində Müştərini Sifarişinin icra edilməməsinin səbəblərini göstərməklə məlumatlandırır.

6.7 Tərəflər razılığa gəlirlər ki, məlumatlandırma bu Müqavilədə və ona əlavə edilmiş əlavələrdə (müştəri anketi) əks olunan telefon, elektron poçt, sms və rəsmi məktub (poçt) vasitəsi ilə həyata keçirilə bilər.

6.8 Şirkətdən asılı olmayan səbəblərdən (fors-major, üçüncü şəxslərin fəaliyyəti, qanunvericiliyin tələbləri və s) icra edilməmiş sifarişə görə Şirkət məsuliyyət daşımır.

6.9 Müştəri sifarişi aşağıdakı hallarda qüvvədən düşmüş hesab olunur və icrası dayandırılır:

6.9.1. müştəri tərəfindən ləğv edildikdə;

6.9.2. sifarişdə göstərilmiş icra müddəti başa çatdıqda;

6.9.3. sifarişdə olan mexaniki səhvlər (qiymət, miqdar səhvi, simvol səhvi və s.) nəticəsində sifarişin icrası mümkün olmadıqda.

7. RİSK FAKTORLARI

7.1 Risklər müxtəlif üsullarla, xüsusən aşağıda verilmiş yollarla təsnif edilə bilər:

7.1.1 Baş vermə mənbələrinə görə:

a) sistem riski - ümumiyyətlə sistemin, yəni istər bank sisteminin, depozitar sistemin, ticarət sisteminin, klirinq sisteminin, istərsə də qiymətli kağızlar bazarını təşkil edən digər strukturların fəaliyyəti ilə bağlı risk;

b) qeyri-sistem (fərdi) risk - qiymətli kağızlar bazarının konkret iştirakçısının: investorun, Şirkətin, səlahiyyətli idarəçinin, ticarət meydançasının, depozitarinin, bankın, emitentin, qiymətli kağızlar bazarını tənzimləyicilərin və s. risklər.

7.1.2 Risk faktorlarına görə:

a) iqtisadi risk - iqtisadi xarakterli əlverişsiz şəraitlərin yaranması riski. Belə risklər arasında aşağıdakıları xüsusi olaraq göstərmək lazımdır:

b) qiymət riski - qiymətlərin əlverişsiz şəkildə dəyişməsindən yaranan itki riski;

c) bazar riski - bazar qiymətlərində olan dəyişikliklərdən yaranan balans və balansdan kənar mövqelər üzrə itki riskləri;

d) valyuta riski - valyuta kurslarının əlverişsiz şəkildə dəyişməsindən yaranan itki riski;

e) faiz riski - faiz dərəcələrinin mənfi dəyişməsindən yaranan itki riski;

f) inflyasiya riski - pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə bağlı risk;

g) likvidlik riski - müəyyən anda aktivlərin satışı və ya alışı ilə bağlı çətinliklərin yaranması mümkünlüyü;

h) əməliyyat riski - daxili proseslər, sistem pozuntuları, insan faktoru və xarici hadisələrdən meydana gələn itki riskləri;

i) əmtəə qiymət riski - əmtəə qiymətlərində olan volatillikdən meydana gələn itki riskləri;

j) hesablaşma və kontragent riski - hesablaşmanın vaxtından gec aparılması və aparılmasından əvvəl kontragentin öhdəliklərini icra edə bilməməsi səbəbindən meydana gələn itki riskləri;

k) konsentrasiya riski - Şirkətin fərdi müştəri və ya müştəri qrupuna qarşı məcmu kapitalının 25%-ni keçən riskləri;

l) kredit riski - borcalanın öhdəliklərini yerinə yetirə bilməməsindən meydana gələn itki riskləri;

m) səhm qiymət riski - səhm qiymətlərində olan volatillikdən meydana gələn itki riskləri;

n) spesifik borc aləti qiymət riski - borc alətləri üzrə emitentlə bağlı faktorlardan meydana gələn qiymət fərqi riski;

CFI Financial Investment Company
Office located on 22nd floor of the building known as "Crescent Business center" at the address of Baku City, Nasimi District, 64 Neftchilar avenue +994125999099 | info.az@cfi.trade | www.cfi.trade

including tax laws, or the amendment (repeal) of existing acts. Legislative risk also includes losses arising from the absence of normative-legal acts regulating activities in any sector of the securities market

q) Socio-political risk – the risk of significant changes in the political and economic environment, the risk of social instability, including strike risks, and the risk of the initiation of military operations.;

r) Criminal risk – the risk associated with unlawful acts committed by third parties and/or the Company's employees, such as the forgery of securities issued in documentary form, fraud, and unauthorized use of computer systems and confidential information;

s) Operational (technical, technological, human resources) risk – the risk of direct or indirect losses arising from the failure of information, electricity, and other systems, or from imperfections in market infrastructure, including the technology for conducting operations, management, accounting, and control procedures, or the actions (inaction) of personnel.;

t) Natural risk – the risk of events independent of human activity, such as natural disasters, earthquakes, floods, tsunamis, hurricanes, lightning, and other similar risks.

u) Technogenic risk-the risk arising from human economic activities; accidents, fires and other similar events.

7.1.3 For the Client, based on economic outcomes:

a) Risk of income loss – the potential for an event to occur that causes the complete or partial loss of expected returns from investments;

b) Risk of loss of invested funds – the potential for an event to occur that causes the complete or partial loss of invested funds.;

c) Risk of loss exceeding the invested amount – the potential for an event to occur that causes not only the loss of expected returns and invested funds, but also results in a loss exceeding the invested amount.

7.1.4 In relation to the Client's source of risk:

a) Direct risk – the risk whose source is directly dependent on the relationship with the Client.;

b) Indirect risk – the potential for an event unfavorable to the Client to occur in a source not directly related to the Client, but which ultimately leads to a series of events that result in the Client facing a loss.

8. TERMS OF THE AGREEMENT AND TERMINATION PROCEDURE

8.1 The Agreement may be terminated in the following cases:

8.1.1 Unilaterally, by either Party, upon prior written notice to the other Party not less than thirty (30) business days in advance;

8.1.2 By mutual agreement of the Parties, duly executed in accordance with applicable procedures, regarding the termination of this Agreement.

8.1.3 In the event the Company's license to conduct its investment activities is revoked;

8.1.4 In other cases stipulated in these Terms.

8.2 Any unfulfilled obligations of the Parties under this Agreement shall remain in force after the termination of this Agreement until such obligations are fully performed.

9. ADDITIONAL PROVISIONS

9.1 The Company shall not be held liable for the partial or complete non-execution of an order in the following cases:

9.1.1 Force majeure – power outages, problems with telephone, fax, or internet connections, earthquakes, floods, fires, natural disasters, civil war, terrorist acts, labor strikes, and other similar events. However, the Party affected by the force majeure shall take all necessary measures to minimize potential damage.

9.1.2 When, in accordance with the legislation, the state authority supervising the securities market or the Central Depository does not permit

o) spesifik mövqe riski - maliyyə alətinin emitenti ilə bağlı faktorlardan meydana gələn qiymət fərqi riski;

p) hüquqi risk - qanunvericilikdə dəyişikliklər ilə bağlı risk (qanunvericilik riski) - yeni qanunvericilik aktlarının, o cümlədən vergi aktlarının yaranması və ya mövcud aktların dəyişməsi (ləğv edilməsi) ilə bağlı itkilərin baş verməsi mümkünlüyü. Qanunvericilik riskinə həmçinin qiymətli kağızlar bazarının hər hansı sektorunda fəaliyyəti tənzimləyən normativ-hüquqi aktların olmamasından baş vermiş itkilər də daxildir;

q) sosial-siyasi risk – siyasi və iqtisadi şəraitdə əsaslı dəyişikliklərin baş verməsi riski, sosial qeyri-stabillik riski, o cümlədən tətil riskləri, hərbi əməliyyatların başlanması riski;

r) cinayət riski- üçüncü şəxslərin və/yaxud Şirkətin əməkdaşlarının qanunsuz əməlləri, məsələn, sənədli formada buraxılmış qiymətli kağızların saxtalaşdırılması, dələduzluq, kompüter sistemlərindən və məxfi məlumatlardan icazəsiz istifadə ilə bağlı risk;

s) əməliyyat (texniki, texnoloji, kadr) riski - informasiya, elektrik və digər sistemlərin nasazlığı, yaxud bazar infrastrukturunun, o cümlədən əməliyyatların aparılması texnologiyasının, idarəetmə, uçot və nəzarət prosedurlarının qeyri-mükəmməliyi, yaxud personalın hərəkəti (hərəkətsizliyi) nəticəsində baş vermiş birbaşa və ya dolayı itkilər riski;

t) təbii risk - insan fəaliyyətindən asılı olmayan risk (təbii fəlakət, zəlzələ, daşqın, tufan, qasırğa, ildırım və s. risklər);

u) texnogen - insanın təsərrüfat fəaliyyətindən yaranan risk: qəza şəraitləri, yanğınlar və s.

7.1.3 Müştəri üçün iqtisadi nəticələrə görə:

a) gəliri itirmə riski - investisiyalardan gözlənilən gəlirin tam və ya qismən itirilməsinə səbəb olan hadisənin baş verməsi mümkünlüyü;

b) investisiya qoyulan vəsaitlərin itirilməsi riski - investisiya qoyulmuş vəsaitlərin tam və ya qismən itirilməsinə səbəb olan hadisənin baş verməsi mümkünlüyü;

c) investisiya qoyulan məbləğdən artıq olan itki riski - tək gözlənilən gəlirin və investisiya qoyulan vəsaitlərin itirilməsinə deyil, həmçinin itkinin investisiya qoyulmuş məbləğdən artıq olmasına səbəb olan hadisənin baş verməsi mümkünlüyü.

7.1.4 Müştərinin risk mənbəyi ilə əlaqəsi ilə bağlı:

a) birbaşa risk - riskin mənbəyi birbaşa olaraq Müştəri ilə hər hansı münasibətlərdən asılıdır;

b) vasitəli risk - Müştəri üçün əlverişsiz olan hadisənin Müştəri ilə birbaşa bağlı olmayan, lakin son nəticədə Müştərinin itki ilə üzləşməsinə gətirib çıxaracaq hadisələr silsiləsini doğuran mənbədə baş verməsi mümkünlüyü.

8. MÜQAVİLƏNİN MÜDDƏTİ VƏ XİTAM VERİLMƏSİ QAYDASI

8.1. Müqaviləyə aşağıdakı hallarda xitam verilə bilər:

8.1.1 Tərəflərdən birinin digərinə 30 (otuz) iş günündən gec olmamaq şərti ilə əvvəlcədən yazılı bildiriş təqdim etməklə birtərəfli qaydada;

8.1.2. Bu Müqaviləyə xitam verilməsi ilə bağlı Tərəflər arasında lazımi qaydada tərtib edilmiş qarşılıqlı razılıq ilə;

8.1.3. Şirkətin investisiya şirkəti fəaliyyəti üçün verilmiş lisenziyası geri çağırıldıqda;

8.1.4. Bu Şərtlərdə nəzərdə tutulan digər hallarda.

8.2. Tərəflərin bu Müqavilə ilə nəzərdə tutulmuş hər hansı icra edilməmiş öhdəlikləri bu Müqaviləyə xitam verildikdən sonra da öhdəliklər tam icra edilənədək qüvvədə olacaqdır.

9. ƏLAVƏ MÜDDƏALAR

CFI Financial Investment Company
Office located on 22nd floor of the building known as "Crescent Business center" at the address of Baku City, Nasimi District, 64 Neftchilar avenue +994125999099 | info.az@cfi.trade | www.cfi.trade

the conclusion of the transaction for any reason, including restrictions imposed on citizens of certain countries.

9.1.3 When there are insufficient funds in the Client's account;

9.1.4 Due to a malfunction in the trading system;

9.1.5 In case an order placed through electronic means is partially or completely unfulfilled due to technical malfunctions, it will be executed in an official manner based on the contract.

9.2 A Party affected by force majeure must notify the other Party about such circumstances no later than 10 (ten) calendar days from the moment they begin. Failure to notify the other Party in a timely manner does not grant the right to rely on force majeure.

9.3 The Client must provide the Company with instructions for the account and subaccount accordingly in order to conduct transactions with securities deposited in the NDC. If the provided instructions do not foresee transactions with the relevant securities or if the instructions expire, making it impossible to fulfill the Order, the responsibility lies with the Client.

9.4 When the Client intends to enter into a directed transaction, they must reflect this in the Order they submit. During the execution of the Order on the Stock Exchange, any company or its client may be the counterparty to the transaction. The Company is not responsible for the selection of a specific counterparty. The Company must place the Client's Order electronically in the Stock Exchange system for execution (except for transactions outside the Stock Exchange).

9.5 The Client confirms the acceptance of the terms set forth in this Agreement, and to warrant that there is no unlawful purpose, including but not limited to the laundering of funds and/or other assets and income derived from criminal activity, or the financing of terrorism through the use of securities, and to assume full responsibility in this regard.

9.6 The Parties are mutually responsible for the performance of the obligations arising from this agreement.

9.7 By signing this Agreement, the Client gives their consent to the Investment Company to obtain and present all of their personal data from information resources solely for the purpose of providing the services specified in this Agreement.

10. SETTLEMENTS AND PAYMENT TERMS FOR THE SERVICES PROVIDED

10.1 The commissions paid by the Client to the Company consist of the following:

9.1. Şirkət sifarişin yarımçıq və ya tamamilə icra edilməməsinə aşağıdakı hallarda cavabdehlik daşımır:

9.1.1 Fors-major- elektrik kəsintisi, telefon, faks və ya internet kabelində yaranan problem, zəlzələ, daşqın, yanğın, təbii fəlakət, vətəndaş müharibəsi, terror aktı, işçi tətili və bu kimi digər hallar. Lakin fors majora məruz qalan tərəf dəyə biləcək zərərin minimal olmasını üçün lazımı tədbirlər görməlidir.

9.1.2. Qanunvericiliyə əsasən qiymətli kağızlar bazarına nəzarət edən dövlət qurumu və ya MDM əqdin bağlanmasına istənilən səbəbdən, o cümlədən bəzi ölkələrin vətəndaşlarına qoyulan qadağa üzündən icazə vermədikdə;

9.1.3. Müştərinin hesabında lazımi qədər vəsait olmadıqda;

9.1.4. Ticarət sistemində baş verən nasazlıq səbəbindən;

9.1.5. Elektron vasitələrlə verilən sifariş texniki nasazlıq səbəbindən yarımçıq və ya tamamilə icra edilmədikdə.

9.2 Fors-major hallarının təsiri altına düşən Tərəf bu barədə digər Tərəfi belə halların başlandığı andan 10 (on) təqvim günü müddətindən gec olmayaraq xəbərdar etməlidir. Digər tərəfi vaxtında xəbərdar etməmə halı fors-major halına əsaslanma hüququ vermir.

9.3 Müştəri MDM-də deponentləşdirilmiş qiymətli kağızlarla əməliyyatlar etmək üçün Şirkətə müvafiq olaraq hesab üzrə sərəncam və subhesab üzrə sərəncam təqdim etməlidir. Təqdim edilmiş sərəncamlarda müvafiq qiymətli kağızlarla əməliyyatların aparılması nəzərdə tutulmadıqda və ya belə sərəncamların müddətinin bitməsi ilə əlaqədar Sifarişin yerinə yetirilməsi mümkün olmadıqda məsuliyyəti Müştəri daşıyır.

9.4 Müştəri ünvanlı əqd bağlamaq istədiyi zaman təqdim etdiyi Sifarişdə bunu əks etdirməlidir. Sifarişin Fond Birjasında icrası zamanı əqdin kontragenti qismində istənilən şirkət və ya onun müştərisi ola bilər. Şirkət müəyyən kontragentin seçilməsinə cavabdehlik daşımır. Şirkət Müştərinin Sifarişinin icrası üçün Sifarişi elektron formada Fond Birjasının sisteminə yerləşdirməlidir (Fond Birjasından kənar əməliyyatlar istisna olmaqla).

9.5 Müştəri bu Müqavilədə nəzərdə tutulmuş şərtləri qəbul etdiyini və hər hansı qeyri-qanuni məqsədinin olmadığını, o cümlədən cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və/və ya digər əmlak və gəlirin leqallaşdırılması və qiymətli kağızlardan istifadə edilməklə terrorizmin maliyyələşdirilməsi məqsədilə istifadə olunmayacağını təmin etdiyini və buna görə məsuliyyət daşıdığını təsdiq edir.

9.6 Tərəflər bu müqavilədən irəli gələn öhdəliklərin icra edilməsi ilə əlaqədar qarşılıqlı məsuliyyət daşıyırlar.

9.7 Müştəri bu Müqaviləni imzalamaqla özünə məxsus bütün fərdi məlumatların yalnız bu Müqavilədə nəzərdə tutulan xidmətlərin göstərilməsi məqsədilə Şirkət tərəfindən informasiya resurslarından əldə edilməsinə və Şirkətə təqdim edilməsinə dair öz razılığını bildirir.

10. GÖSTƏRİLƏN XİDMƏTLƏR ÜZRƏ HESABLAŞMALAR VƏ ÖDƏNİŞ QAYDALARI

10.1 Müştərinin Şirkətə ödədiyi komissiyalar aşağıdakılardan ibarətdir:

Xidmətlərin növləri / Type of services	Xidmət haqqı / Service fee
1. Dövlət istiqrazları / Government bonds	
İlkin bazar / Primary market	Əqdin məbləğinin 0.05 %-i / 0.05% of the transaction amount
Təkrar bazar / Secondary market	Əqdin məbləğinin 0.05 %-i / 0.05% of the transaction amount
2. Mərkəzi Bankın notları / CBAR notes	

CFI Financial Investment Company
Office located on 22nd floor of the building known as "Crescent Business center" at the address of Baku City, Nasimi District, 64 Neftchilar avenue +994125999099 | info.az@cfi.trade | www.cfi.trade

İlkin bazar / Primary market	Əqdin məbləğinin 0.05 %-i / 0.05% of the transaction amount
Təkrar bazar / Secondary market	Əqdin məbləğinin 0.05 %-i / 0.05% of the transaction amount
3. İpoteka istiqrazları / Mortgage bonds	
İlkin bazar / Primary market	Əqdin məbləğinin 0.05 %-i / 0.05% of the transaction amount
Təkrar bazar / Secondary market	Əqdin məbləğinin 0.05 %-i / 0.05% of the transaction amount
4. Səhmlər / Stocks	
İlkin bazar / Primary market	Əqdin məbləğinin 0.05 %-i / 0.05% of the transaction amount
Təkrar bazar / Secondary market	Əqdin məbləğinin 0.05 %-i / 0.05% of the transaction amount
5. Korporativ istiqrazlar / Corporate bonds	
İlkin bazar / Primary market	Əqdin məbləğinin 0.05 %-i / 0.05% of the transaction amount
Təkrar bazar / Secondary market	Əqdin məbləğinin 0.05 %-i / 0.05% of the transaction amount
6. REPO və ƏKS-REPO / REPO and Counter-REPO	
REPO və ƏKS-REPO / REPO and Counter-REPO operations	Açılış əqdi məbləğinin 0.002 %-i / 0.002% of the opening transaction amount
7. Digər xidmətlər / Other services	
Bir qiymətli kağız üzrə depo hesabından çıxarışın alınması / Obtaining a statement for a single security from a depo account	10.00 AZN
Bütün qiymətli kağızlar üzrə depo hesabından çıxarışın alınması / Obtaining a statement for all securities from a depo account	30.00 AZN

10.2 The commission fee does not include the commission fees related to the transactions with the Stock Exchange (BFB) and the NDC. CFI may set the minimum amount of the service fee. When the transaction amount exceeds AZN 100,000.00, the commission fee for the provided services may be determined by mutual agreement of the parties.

10.3 The Client pays the commission for intermediary services to the Company in Azerbaijani manat (AZN). For transactions conducted in foreign currency, the commission fee must be paid in AZN equivalent, based on the exchange rate determined by the Central Bank of the Republic of Azerbaijan for that day.

10.4 The Client pays the commission of the Company and other service-related costs based on the reports sent by the Company after the execution of Orders, by the last working day of the calendar month in which the reports are provided. If the report is provided within the last two working days of the calendar month, the commission for the transactions reflected in the report and the costs

10.2 Komission haqqına əqdlə bağlı BFB və MDM komission haqqları daxil deyil. CFİ xidmət haqqın minimum məbləğini müəyyən edə bilər. Əqdin məbləği AZN 100 000.00 manatdan yuxarı olduqda göstərilən xidmətlərə görə ödəniləcək komission haqqı tərəflərin qarşılıqlı razılaşması ilə müəyyən edilə bilər.

10.3 Müştəri Şirkətə vasitəçilik xidmətlərinə görə komissiyanı Azərbaycan manatında (AZN) ödəyir. Xarici valyutada həyata keçirilən əqdlər üzrə komissiyanı haqqı həmin günə Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən müəyyən olunmuş məzənnəyə uyğun olaraq AZN ekvivalentində ödənilməlidir.

10.4 Şirkətin Sifarişlərin icrasından sonra aparılmış əməliyyatlar haqqında Müştəriyə göndərdiyi hesabatların əsasında Şirkətin komissiyasını və digər xidmətlərlə bağlı xərcləri hesabatların təqdim olunduğu təqvim ayının son iş gününə kimi ödənilir. Hesabatın təqdim olunması təqvim ayının son iki iş gününə düşdükdə,

CFI Financial Investment Company
Office located on 22nd floor of the building known as "Crescent Business center" at the address of Baku City, Nasimi District, 64 Neftchilar avenue +994125999099 | info.az@cfi.trade | www.cfi.trade

incurred during the provision of intermediary services are paid by the last working day of the following calendar month.

10.5 The prices listed in the tariff schedule may be changed with the Client's consent.

11. SOCIAL MEDIA PLATFORMS

We at CFI hereby bring to your attention that the products and services promoted on our official channels and social media platforms reflect the general CFI Group offering but may vary in their availability within the Republic of Azerbaijan. Due to regulatory requirements and the laws of Azerbaijan, some services or procedures offered by other CFI entities may not be available locally. As a client of CFI, it is your responsibility to ensure that the services you request are permitted under Azerbaijani law. We encourage you to contact us directly to verify the availability and legality of specific services in Azerbaijan. While CFI strives to provide consistent services across the Group, variations may occur in Azerbaijan to comply with local regulations. We want to ensure transparency and clarity in our dealings with you, and hence, we advise you to seek clarification if you have any concerns regarding service availability. For any inquiries or assistance, please do not hesitate to contact us through the channels provided on our official website or to contact your account manager at CFI.

The Company fully disclaims any legal responsibility for any communication or interaction conducted through social media platforms by any party that claims, whether directly or indirectly, and without official authorization or legal basis, to represent the Company or any of its employees. The Client acknowledges that the Company shall not, under any circumstances, be held liable for any damages or losses, whether direct or indirect, material or moral, that may result from such impersonation or from reliance on such false claims.

The Company emphasizes the obligation of Clients to refrain from engaging with any parties or accounts not listed among the official and approved channels for communication, information, and services.

Please be advised that the following platforms are the only official and approved channels for communication, information, and services related to the company:

- Official Website: cfi.az
- Official Instagram Page: Cfi Group Azerbaijan (@cfigroup.az)
- Official Facebook Page: Cfi Group Azerbaijan
- Official LinkedIn Page: CFI Azerbaijan

The Company disclaims all liability for any content, information, communications, or transactions conducted through any websites or social media accounts that are not officially affiliated with the channels listed above.

Clients and users are hereby cautioned against interacting with any platforms or pages claiming to represent the Company that are not included among the official platforms. We strongly recommend to always verify links and authorized accounts to ensure the accuracy of information and the confidentiality of data.

12. WHISTLEBLOWING AND MISCONDUCT REPORTING

Company upholds the highest standards of integrity, transparency, and regulatory compliance in all aspects of its operations.
If you are aware of, or reasonably suspect in good faith, any act involving fraud, attempted fraud, corruption, bribery, collusion, breaches of applicable laws or regulations, violations of professional duties, misuse of client assets, conflicts of interest, financial or accounting irregularities, or any other improper or unethical conduct contrary to the Company's policies and procedures, you are encouraged to report such matters through the following email address:
whistleblowing.az@cfi.trade
All reports will be handled with strict confidentiality, reviewed objectively, and addressed in accordance with the Company's internal policies and procedures. The Company recognizes and values such disclosures as an essential component of its internal governance and compliance framework aimed at strengthening integrity and sound management.

hesabatda əks olunan əqdlə bağlı komissiyanı və vasitəçilik xidmətini həyata keçirərkən çəkilən xərclər növbəti təqvim ayının son iş gününə kimi ödənilir.

